# Azərbaycanda multikultural dəyərlərin təşəkkülü

**Azərbaycan Prezidenti İlham Əliyev yaşadığımız 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir. Düşünürəm ki, bu, adi bir məsələ deyil. Cəmiyyətlər, dövlətlər və xalqlar ancaq öz tarixi ənənələrinə və dəyərlərinə söykənərək, onları davam etdirərək yüksələ və tərəqqi edə bilirlər. Prezidentin bu qərarı da haradasa böyük Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq və digər mənəvi prinsipləri ilə bağlıdır, bəlkə də onların birbaşa davamıdır. O böyük insan bilirdi ki, Qərb və Şərq sivilizasiyalarının kəsişdiyi bir məkanda təşəkkül tapan xalqımızın gələcəyi ancaq öz tale yolu ilə inamla irəliləməklə, tarixi missiyasına xidmət göstərməklə çiçəklənə bilər.**



Multikulturalizm anlayışı sözdə sadə və aydın görünür. Amma real dövlət siyasəti kimi, cəmiyyətin quruluşunun təməl prinsiplərindən biri kimi, dedikcə incə və mürəkkəb bir məsələdir. Çoxmədəniyyətli cəmiyyət demək asandır, amma onu idarə etmək, inkişafa yönəltmək, sosial və milli tərəqqinin köklü prinsiplərindən birinə çevirmək və bundan cəmiyyətin və insanların xeyrinə istifadə etmək dövləti ağıl, böyük siyasi mədəniyyət, həyati bilik, uzaqgörənlik, tarixi tərəqqinin mexanizmini düzgün anlamaq bacarığı tələb edir. Düşünürəm ki, multikulturalizm ili ilə bağlı Prezidentin qərarı onun məhz bu prinsipləri rəhbər tutduğunu təsdiqləyir. Belə ali keyfiyyətlər Prezident İlham Əliyevə birinci növbədə, böyüdüyü ailədən, dahi Heydər Əliyevin müdrik tərbiyəsindən təhsil aldığı beynəlmiləl məktəbdən, öyrəndiyi dillərdən, mədəniyyətlərdən keçmişdir.

Burada mən bir müəllim kimi sovet dönəmində ərsəyə gələn təhsil siyasətinin tolerantlıq üzərində qurulması barədə deməyə bilmərəm. Milli məktəb istisnasız olaraq bütün dəyərlərin yaradıldığı və qorunduğu müqəddəs bir ocaqdır. Bu zəka və ülviyyət ocağını qədirbilənliklə qorumaq, onun tarixi ənənələrinə qiymət vermək, müasir tələbləri özündə ehtiva etmək bacarığını dəyərləndirmək, millətin mənəviyyatının beşiyi başında ləyaqətlə dayananları milli sərvətimiz kimi qorumaq vacibdir. Bu gün dünyanın bir çox ölkələrində gördüyümüz qardaş qırğını kimi ağlasığmaz hadisələr bizi müdrikliyə, öz təhsil sistemimizin ən yaxşı ənənələrinin qədrini bilməyə çağırır. Multikultural dəyərlərin tarixi bəhrələri bizə deyir ki, xalqları, mədəniyyətləri qarşı-qarşıya qoymaq olmaz. Müəllimlərimizin müəllimi Abdulla Şaiqin təbirincə desək, hamımız bir günəşin zərrəsiyik, Adəm övladıyıq. Tərəqqi və çiçəklənmə etnos və mədəniyyətlərin qarşı-qarşıya qoyulmasından doğmur, əksinə, onların vəhdətindən, qarşılıqlı zənginləşməsindən və çarpazlaşmasından yaranır. Bütün böyük sivilizasiyalar bir qayda olaraq mədəniyyətlərin, hətta etnosların çarpazlaşdığı məkanlarda ərsəyə gəlib. Mən Azərbaycan xalqının və mədəniyyətinin ən yaxşı keyfiyyətlərini bu bucaq altında görürəm.

Ulu öndər Heydər Əliyevin siyasi və elmi nəzəri irsi, onun dövlətçilik üslubu və prinsipləri bizim xalqımızın misilsiz sərvətidir. Bizə firavan və uğurlu gələcəyin yolunu göstərən dəyərli xəzinədir. Onun siyasi irsi həm də çox mədəni bir cəmiyyəti yaratmaq və idarə etmək məktəbidir. Ulu öndər yaxşı bilirdi ki, Azərbaycan müsəlman ölkələri arasında qabaqcıldır və bunun təbii şərtlərindən biri vətənimizin çoxetnoslu, çoxdinli bir məkan olmasıdır. Həm də çoxmədəniyyətli cəmiyyətin tərəqqisinin sürəti, nəticələri özözünə ərsəyə gəlmir. Belə nəticələrə nail olmaq üçün müxtəlif mədəniyyətlərə məxsus icmaların münasibətləri düzgün qurulmalıdır, hər mədəniyyətin çiçəklənməsi və digər qonşu mədəniyyəti tamamlayıb zənginləşdirməsi üçün imkanlar yaradılmalıdır. Amma bunu gerçəkləşdirmək çətindir. Ona görə ki, bu, mədəniyyətlərə bir gözlə baxmağı, onların hamısına qayğı göstərməyi tələb edir. Elə bir siyasət tələb edir ki, müxtəlif etnik və mədəni qruplar özlərini həm də vahid bir mədəniyyətin üzvü kimi hiss etsin, an azı, özünü bu mədəniyyətdən kənarda görməsin. Bunun üçün cəmiyyətin, dövlətin başında duran insanların və daha çox birinci şəxslərin mövqeyi həlledici olur. Azərbaycanda da 1960-cı illərdən sonra birgəyaşayışın tolerant prinsiplərinin qorunmasında Heydər Əliyevin misilsiz rolu oldu. Biz bu təcrübəni hələ çox araşdırıb öyrənməli, onun incəliklərini yeni nəsillərə çatdırmalıyıq.

Bunlar nəyə görə zəruri idi, nəyə görə ulu öndərin fəaliyyətində müstəqillik illərində də qorundu və davam etdirildi? Ona görə ki, mədəni toplumların bir-birinə qeyri-sağlam münasibəti nəinki sosial tərəqqini və çiçəklənməni ləngidir, hətta dəhşətli etnik və kultural toqquşmalara çevrilir və dağıdıcı nəticələr verir. Elə Azərbaycanda erməni separatizminin baş qaldırması bunun əyani sübutu idi. Erməni separatizmi hər iki tərəfə fəlakətli zərbələr vurdu. Müharibə minlərlə insanın həyatını itirməsinə səbəb oldu, şəhidlər verildi, hər iki tərəfdən yüz minlərlə qaçqın meydana çıxdı, təsərrüfat fəaliyyətinə, mədəni dəyərlərə böyük zərbələr vuruldu. İndi ermənilərin sağlam düşüncəli adamları açıq etiraf edirlər ki, Qarabağ erməniləri Azərbaycan ərazisində dinc yanaşı yaşayanda özlərini daha əmin hiss edirdilər. Ruslar Qafqaza gələndən sonra böyük üstünlüklər qazanmışdılar, sovet vaxtı da bu, davam edirdi və ermənilərə bir xristian toplumu kimi xüsusi səlahiyyətlər, güzəştlər verilmişdi, ən çox da Azərbaycan dövlətinin strukturlarında mikoyanların, şahnəzərovların və bir çox başqalarının yüksəliş yolu Qarabağdan Bakıya, sonra Bakı tramplinindən Moskvaya doğru olmuşdu.

Bəs onların Azərbaycandakı separatizminin nəticəsi nə oldu? Onlar Azərbaycan ərazisindəki mövqelərini itirdilər, oyuncaq "Qarabağ dövləti" isə Ermənistan Respublikasının kasıb büdcəsini sümürən lazımsız bir hərbi düşərgəyə çevrildi.

50-70 min adam üçün dövlət yaratmaq cəhdi sağlam düşüncədən uzaqdır, amma böyük xristian dövlətləri buna getdilər: SSRİ dağıldı və arzularına çatdılar. Bəs ermənilər nə qazandılar? Onlar Qərbdən və Rusiyadan daha çox asılı vəziyyətə düşdülər. Ermənilər uduzdular, çünki Azərbaycanda törətdikləri ədalətsizlik və qəddarlıqlar onları yaşadıqları bütün müsəlman ölkələrində təcavüzkar kimi tanıtdı. Bunlar birbaşa Qarabağ konfliktində erməni millətçilərinin qeyri-adekvat mövqeyinin nəticələridir.

Heydər Əliyev erməni təcavüzkarlığına qarşı səs-küysüz, amma dönməz mübarizə taktikasının müəllifidir. Ermənilərin antimüsəlman və antitürk qəddarlığı ilə mübarizə gələcəkdə də xarici siyasətimizin mühüm xətti olmalıdır. Müsəlmanların sadəlövhlük dövrü bitib və Yaxın Şərqdəki alov həm də bunun bariz nümunəsidir. Digər mədəniyyətlərə nifrət və aqressivlik bütün hallarda Adolf Hitlerin öz xalqına gətirdiyi faciənin təkrarı kimi yekunlaşacaq. Bir qrup çaşmış anqlosaks siyasətçisini də bu aqibət gözləyir.

Erməni xalqının və dövlətinin bugünkü faciəsi onların yaşadıqları müsəlman əhatəsində tolerantlıq hissini itirməsinin nəticəsidir. Qabaqcıl xristian dövlətləri öz məkrli planlarında ermənilərdən istifadə edir, onlara maliyyə ayırır. Bu isə onların millətçi hissəsini çaşdırır, hər yerdə xüsusi səlahiyyətlər və güzəştlər tələb edirlər, öz mədəniyyətlərini digər müsəlman mədəniyyətlərinin fövqünə qoymağa çalışırlar. Semitizm də təxminən bu idi və yəhudilərin tarixi faciələri ilə nəticələndi. Bir cəmiyyətin üzvü olasan, onun çörəyini yeyəsən və ona yuxarıdan aşağı baxasan: bu açıqca korluqdur və kor taleyə doğru getməkdir.

Sovet dönəmində xalqların mədəniyyətlərinə, özəlliyinə münasibət sağlam idi. Hərçənd bu məsələlər bir qədər zorakılıqla icra edilsə də, düzgün həll edilirdi və bunları qiymətləndirməkdə ədalətli olmaq lazımdır. Beynəlmiləl məktəblər və uşaq bağçaları vardı. Proletar sinfinin beynəlmiləl təbiəti təbliğ olunurdu. Lakin şübhəsiz ki, mədəniyyətlərin siniflərə aid edilməsi yanlış idi və təsadüfi deyil ki, proletar mədəniyyəti yaratmaq planları baş tutmadı. Lakin mədəniyyətlərin məzmunca bəşəri, formaca milli olması tezisi də doğru idi. O mənada doğru idi ki, mədəniyyətlər hamısı çarpaz köklüdür, onların yaradılmasında müxtəlif toplumlar iştirak etmişdir, müəyyən mənada sivilizasiyaları da imperiya dövlətlər yaratmışdır. Mədəniyyətlərin məzmunu buna görə bəşəridir, çünki onlar tərəqqinin ümumi yoludur və bütün hallarda milli variantlarda və formalarda mövcuddur.

Ulu öndər tolerantlığa - mədəniyyətlərin, dillərin, dinlərin , mətnlərin dialoquna bir qapı kimi baxırdı. Tolerantlığı itirən xalqlar əslində, bəşəri dəyərlərlə əlaqələrin qapısını bağlayırlar, milli tərəqqinin əsas impulsundan məhrum olurlar. Paradoksal olsa da belədir: keçmişlərə boylandıqca mədəniyyətlərin, dinlərin, etnosların çarpazlaşması qanlı müharibələr və qırğınlar şəklində görünür. Lakin insanlar və toplumlar hər müharibədən, qantökmədən sonra yeni bir ehtirasla tarix və tərəqqi səhnəsinə çıxırdılar, zəiflər itir, sağlamlar təzədən bitirdi. İndi dünyanın reallığı başqadır: informasiya ötürülməsi və mənimsənilməsi vasitələri o dərəcədə tərəqqi edib ki, daha müharibələrə ehtiyac yoxdur. İnsan tolerantlığı tərəqqinin yeni bir yolu kimi təhsil və biliklərlə ittifaqda görür, yeni bir tərəqqi modeli yaradır. Ümummilli liderin ən böyük arzularından biri Azərbaycan xalqının ən qabaqcıl xalqlarla dostluq və həmrəylik yolunda olması idi. Bu, elə tolerantlığın və çoxmədəniyyətliliyin təntənəsi deməkdir, xalqın güc mənbəyinə çevrilməsi deməkdir.

Sovet dönəmində Azərbaycan xalqı qonşu xalqların həmrəyliyinin, bir-birinə xeyirxah münasibətlərinin konkret nümunələrini görmüşdü. Bakıda, Sumqayıtda, Mingəçevirdə, Qaradağda misilsiz tikintiləri ərsəyə gətirməyə bizə müxtəlif sovet xalqlarının nümayəndələri kömək etmişdilər. Müharibədən çıxmış ölkədə, kasıblıq və ehtiyacın hələ yox olmadığı bir şəraitdə bu yardımın misilsiz əhəmiyyəti var idi. Bu böyük tikintilərdən sonra Azərbaycan tam bir sənaye ölkəsinə çevrildi. Heydər Əliyev bu tikintiləri ərsəyə gətirmişdi, gözləri ilə görmüşdü, onları himayə etmişdi və xalqların əməkdaşlığının necə böyük tərəqqi mənbəyi olduğunu bilirdi, bunu öz ardıcıllarına da öyrədirdi.

Təhsilin bəşəri və dünyəvi məzmunu Heydər Əliyev üçün dövlətçiliyin, yüksəlişin fundamental prinsipi idi. Ona görə bu problemlərlə həmişə və çox ciddi məşğul olurdu. Çünki bilirdi ki, təhsildəki səhvləri, dərsliklərdəki adi eyhamlardan gələn yanlışlıqları sonradan təshih etmək çətin olur, çox vaxt mümkün olmur. Ulu öndər bu yöndəki bütün qərarlarında dinin dövlətdən ayrılığı prinsipini gözləyir və bunu öz tərəfdaşlarından və təhsil işçilərindən tələb edirdi. Nəzərə alırdı ki, bu məsələ müsəlman dövlətlərinin yaralı yeridir, onların geriliyinin əsas səbəblərindən biridir. Dövlət qanunlara əsaslanır, din isə mənəvi dəyərlərə. Bunlar heç vaxt bir-birini əvəz edə bilməz. Həmişə sayırdı ki, din və dünyəvi təhsil tələsik müzakirə məsələsi deyildir, belə məsələlərdə yüz ölçüb bir biçmək lazımdır, bəlkə bir qədər mühafizəkar olmaq, təhsildə sabitləşmiş qaydalara hörmətlə, dəyər kimi yanaşmaq lazımdır. Eyni zamanda, ulu öndər dünyəvi təhsildən ayrı dini təhsili də müdafiə edir və onun öz ənənələrinin yaranmasına qayğı ilə yanaşırdı. Müdrik bir azərbaycanlı kimi nəzərə alırdı ki, dünyəvi və dini təhsil konsepsiyaları yanaşı yaşaya bilər. Amma onlar arasında populist polemikaları səmərəsiz və hətta təhlükəli sayırdı: qarşılıqlı ittihamlar, bir-birinin işinə qarışmaq, bir-birini gözdən salmaq cəhdləri ictimai fikrə də mənfi təsir edir, quru yerdən problem çıxarır. Buna isə heç bir cəmiyyətin ehtiyacı yoxdur.

Heydər Əliyev sovet dönəmi Azərbaycan dövlətçiliyinin tarixində Nəriman Nərimanov xəttinə mühüm önəm verirdi. Bizim mənəvi tariximizdə həm Şərq-müsəlman, həm də Qərb və rus sivilizasiyalarının dəyərlərinin paralel fundamental inkişafına böyük diqqət yetirirdi. Real siyasi qərarları ilə buna kömək edirdi. Xarici siyasət xətti vasitəsilə, çıxış və məqalələri ilə bizə öyrədirdi ki, bu iki başlanğıcı bir-birinə qarşı qoymaq olmaz. Belə qarşıqoyma fəlakət olardı. Çünki Azərbaycan öz coğrafi mövqeyinə görə Qərblə Şərqin sərhədindədir və bu amil bütün Azərbaycan tarixində və mədəni düşüncəsində öz izini qoyubdur, ölkəmizi real çoxmədəniyyətlilik mərkəzinə çeviribdir. Bu, mədəniyyətimizin, siyasi gələcəyimizin təminatı üçün bizə verilən bir tarixi töhfə və şansdır. Ulu öndər bunu göz bəbəyi kimi qorumağı tövsiyə edir, bizə də öz fəaliyyəti ilə bunun nümunələrini öyrədirdi.

Əslində, çoxmədəniyyətlilik Azərbaycan üçün əlavə şans yaradır. Lakin bir şərtlə ki, onu düzgün anlayasan və ondan düzgün nəticələr çıxarasan. Biz müsəlman Şərqi, Qərb və Rusiya arasındayıq. Bu, həyatın bütün sahələrində bizə əlavə şanslar verir. Biz kor-koranə Qərbdən yapışıb müsəlman aləminə və Rusiyaya arxa çevirsək, onlarla qonşuluq və dialoqumuzdan öz rifahımız və iqtisadi maraqlarımız üçün istifadə etməsək özümüzü təcrid etmiş olarıq. Üç şans bir şansa çevrilir. Bunu nəzərə alan ulu öndər hər üç qonşu mədəniyyətə və sivilizasiyaya qarşı eyni dərəcədə məsafə saxlamaq siyasətini aparırdı və bu siyasət bu gün də uğurla davam edir. Prezident İlham Əliyevin təmkinli, səbirli, ardıcıl xarici siyasəti bunu təmin edir.

Yalnız başqa mədəniyyətlərə düzgün, qədirbilən və səmimi münasibət onlardan faydalanmağa və zənginləşməyə yol açır. Bunu ölkənin birinci xanımı Mehriban Əliyevanın əhatəli fəaliyyətində də aşkar görürük. Yalnız məhdud adamlar beynəlxalq mədəni dialoqa adi ünsiyyət kimi baxa bilər. Əslində, hər bir mədəni dialoq insanlarla birgə ünsiyyətdə zənginləşən bir prosesdir və ancaq dialoq olmaqdan çox-çox genişdir, mürəkkəb və səmərəlidir. Konkret adamlar arasında xoşniyyət və xeyirxah iradə sonradan xalqların və dövlətlərin yaxınlaşmasına səbəb olur. Bir-birini tanımadan, bir-birinin mədəniyyətini bilmədən əməkdaşlıq baş tutmur. Mehriban Əliyevanın fəaliyyəti dövlətimiz və insanlarımız üçün bu yolları göstərir və açır. Biz bu siyasətə həmişə minnətdar olacağıq və olmalıyıq.

Heydər Əliyev hələ sovet dönəmində mədəniyyətlərin, cəmiyyətlərin, dövlətlərin dialoquna sosial tərəqqi faktoru kimi yanaşır və bunlardan dövlətimizin inkişafı maraqları üçün istifadə etməyə çalışırdı. Məsələn, azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif nüfuzlu ali məktəblərinə oxumağa getməsinə hər cür yardım edirdi. Bu, mədəniyyətlərin, xalqların, mentalitetlərin dialoqu imkanlarını intensivləşdirmək istəyi idi. Bu həm də Azərbaycan xalqının bütün sahələrdə yüksəlişini intensivləşdirən əsl gələcək yaratmaq məqsədi idi. Bu kadrlar qayıdıb bizim cəmiyyətə xidmət edən insanlar oldular. Lakin onlar həm də qonşu xalqlar və dövlətlərlə gözə görünməyən körpülər saldılar. Bu da mədəniyyətlərin çarpazlaşmasının balaca hüceyrəsi idi. Amma hüceyrələr onlarca, yüzlərcə olanda yəqin ki, tamam yeni keyfiyyət - tərəqqi xassəsi kəsb edir.

Bu günlərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi cəmiyyətə gözəl bir kitab təqdim edib: "Azərbaycan Multikulturalizminin ədəbi-bədii qaynaqları" (Bakı, 2016). Mən bu kitabı vərəqləyib heyrətləndim. Min il əvvəl də Vətənimiz çoxmədəniyyətli ölkə idi, Nizamilər, Nəsimilər, Dədə Qorqud qəhrəmanları da qonşu mədəniyyətlər, dinlər, ədəbiyyatlarla dialoqda idilər. Mən bu qaynaqların hamısının adını çəkmirəm. Onu demək istəyirəm ki, biz tarix səhnəsinə ayaq qoyan vaxtdan belə olmuşuq, bəşər mədəniyyətinin, tarixi toplum və dövlətlərin xəzinəsindəki dəyərlərə bağlı, onlara əliçatan olmuşuq. Və bu, bizim ruhumuzun, sözümüzün, ədalətimizin, kitablarımızın gücü olubdur.

Heydər Əliyev ölkəyə rəhbərliyinin hər iki dövründə dini konfessiya başçıları ilə işə böyük önəm verirdi. Həm də onların şəxsi keyfiyyətlərinə görə deyil, müəyyən toplumların dəyərlərini təmsil etdiklərinə görə. Ulu öndərin fəaliyyətini daim izləyən bir adam kimi deyə bilərəm ki, Heydər Əliyev ölkəmizdəki dini konfessiya liderlərini həmişə bir yerdə qəbul edirdi. Deyirdi ki, siz ayrılmaz bir cəmiyyətin üzvlərisiniz, siz ən əvvəl insan və vətəndaş, sonra isə müsəlman və ya yəhudisiniz. Bu, balaca bir nümunə idi, amma sabit qayda kimi, konfessiyaların bərabərlik prinsipi kimi təkrarlananda insanlarda tolerantlıq hissinə güc verirdi. Əslində, bu hissin tarixi qədimdir və hər bir azərbaycanlının yaddaşında kök salıbdır. Köhnə Bakıda müsəlman məscidləri ilə yəhudi sinaqoqları eyni küçələrdə, necə deyərlər, beş addımlıqda tikilirdi, hamısı da Allah evi sayılırdı. Müsəlmanlar xristian və yəhudi qonşularının, dostlarının, iş yoldaşlarının xeyir-şərində iştirak edəndə və əksinə olanda, onlar istər-istəməz ənənəvi Qafqaz yaddaşının daşıyıcısı olurdular. Mən çoxlu fakt bilirəm ki, erməni-azərbaycanlı münasibətlərinin ən gərgin çağlarında yaxın qonşular bir-birinin köməyinə gəliblər, sosial psixoz adi qonşuluq dəyərləri qarşısında məğlub olubdur.

SSRİ dağılandan sonra bizdə antirus ovqatlar gücləndi, yetkin olmayan "azad" mətbuat da bu işdə az rol oynamadı. M.Qorbaçov və onun ətrafındakı bir dəstə adam bizə qarşı xeyirxah olmayan münasibətdə idilər, aşkar ermənipərəst idilər. Amma bunu sovet və rus sivilizasiyasına düşmənçilik bəhanəsinə çevirmə böyük səhv olardı. Bu səhvin baş alıb getməməsi üçün Heydər Əliyevin səbirli, müdrik mövqeyi həlledici rol oynadı. Çünki ulu öndər rus xalqının və dövlətinin simasında yeni düşmən obrazı yaradılmasının fəsadlarını əvvəlcədən bilirdi. Rus məktəblərinin kütləvi bağlanmasının qarşısı alındı. Ulu öndər bilirdi ki, rusdilli məktəbləri bağlamaq Qərb sivilizasiyasına tərəf getmək üsulu deyil. Məktəbin qapısındakı lövhəni dəyişməklə və ya ona başqa bir don geyindirməklə yeni məktəb yaranmır. İngilisdilli məktəbləri biz bacardıqca tez yaratmalıyıq, bu işə vəsait əsirgəməməliyik və bu, böyük tarixi dövr ərzində başa gələcəkdir. Rus məktəblərinin səviyyəsi insanları təmin etməyəndə onlar bağlanacaqdır, özü də təbii şəkildə. İngilisdilli sivilizasiya bizə rus dilinin yerinə yox, öz yerinə gələsidir və gələcəkdir.

Hələ orta əsrlərdən Azərbaycan ərazisi ikidilli idi: Qafqaz xalqları, irandillilər, ermənilər, yəhudilər hamısı bizim türkcəni bilirdilər. Bu, tarixi qonşuluq münasibətlərinin nəticəsi idi, kiminsə xidməti deyildi. Sağlam düşüncə, insan fitrətinin ümumiliyi bizi mehriban qonşu etmişdir. İndi bizə bir şey qalır: bunun qədrini bilmək, bundan insanların rifahı üçün, daha yaxşı yaşaması üçün istifadə etmək. Bu da ulu öndərin bizə qoyduğu siyasi irsin mühüm amillərindən biridir: ölkənin çoxdilli və çoxmədəniyyətli olmasının qədrini bilmək. Bunu da biz Heydər Əliyevdən öyrənə bilərik. Müxtəlif etnik qrupların, regionların hakimiyyətdə, Milli Məclisdə mütənasib təmsil olunması onun quruculuq strategiyasının mühüm xətti idi. Təəssüf ki, insanlar arasında nifaq salmaqla, ağa qara deyən adamlar da var və gələcəkdə də olacaqdır. Ona görə biz "yaxın qonşu uzaq qohumdan yaxşıdır" məntiqini əldən verə bilmərik. Bu, böyük öndərin əsas vəsiyyətlərindən biridir.

Tarix qoca Avropanı belə tolerantlıq dəyərləri ilə sınağa çəkir. Milyonlarla qaçqın taleyi qlobal fəlakətə çevrilmişdir. Əslində, qaçqınlar problemi yoxdur, aqressiv dövlətlərin ərəb dünyasına zorakı və qəddar müdaxiləsi var. Müsəlman ölkələrində süni sosial inqilablar, çəhrayı çevrilişlər var. Bunlar bütün bəşəriyyət üçün təhlükədir. Hər xalqın milli forma, dəyər və qaydaları mövcuddur. Bu qaydalara hörmət edilməlidir, xalqlara öz taleyini təyin etmək imkanı verilməlidir. Xaosdan çıxmağın yolu budur, yeni-yeni koalisiyalar yaratmaq deyil. Azərbaycan bu oyunlardan kənardadır və bu, ölkəmizdəki sülh və tərəqqinin bünövrəsidir, bu, mentalitetimizdə əsrlərlə yaşamış milli dəyərlərin, əxlaqın, mənəviyyatın nəticəsidir. Biz xalqımızın, cəmiyyətimizin birliyini qorumalıyıq, tolerantlıq dəyərlərimizi, vətəndaş həmrəyliyimizi artırmalıyıq. Müstəqil Azərbaycan ulu öndərdən qalan müqəddəs mirasdır, bizə və gələcək nəsillərə eyni dərəcədə məxsusdur. Gərək hamılıqla onun qədrini bilək və qeydinə qalaq.

***Nurlana ƏLİYEVA,***
***YAP İdarə Heyətinin üzvü,***
***YAP Qadınlar Şurasının sədri,***
***filologiya elmləri doktoru,***
***professor***